# Unudulmaz, həmişəyaşar Mirzə

Görkəmli xalq yazıçısı və ictimai xadim Mirzə İbrahimovun anadan olmasının 100 illiyi ərəfəsində "Elm" nəşriyyatı "Mirzə İbrahimov. Müasirlərinin xatirəsində" kitabını oxuculara hədiyyə kimi təqdim etmişdir. Kitabın tərtibçisi və ön sözün müəllifi filologiya elmləri doktoru, professor Teymur Əhmədov, redaktoru ədəbiyyatşünas alim Şirindil Alışanovdur. Tərtibçinin ön sözü ilə başlayan kitabda xalq yazıçısı, akademik Mirzə İbrahimovun müasirlərinin xatirələri və şairlərin ona həsr etdikləri şeirlər toplanmışdır. Kitabın sonunda "Ömrün mənalı anları fotoşəkillərdə" bölməsində Mirzə İbrahimovun həyatını, mühitini və ictimai fəaliyyətini işıqlandıran unikal foto-şəkillər verilmişdir.

Məlum olduğu kimi, Mirzə İbrahimov XX yüzillikdə yaşayıb-yaratmış Azərbaycanın ən görkəmli yazıçısı, publisisti, ictimai-siyasi xadimi olmuşdur. Onun əsərləri dünya xalqlarının dillərinə tərcümə olunub yayılmışdır.

Mirzə İbrahimov çoxcəhətli yaradıcılığı, geniş ictimai-siyasi fəaliyyəti ilə ölkə hüdudlarından kənarda da tanınırdı. Xatirələr kitabında Mirzə İbrahimovun həyatı, mühiti, yaradıcılığı, ictimai fəaliyyəti haqqında zəngin və son dərəcə maraqlı xatirələr verilmişdir ki, bu onun şəxsiyyəti barədə tam, dolğun təsəvvür yaradır.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov qardaş xalqların görkəmli söz ustalarının yaradıcılıqları haqqında son dərəcə qiymətli məqalələr, xatirələr, elmi-ədəbi traktatlar yazmışdır.

Ədibin zəkasının və qələminin qardaş xalqların görkəmli söz ustaları Muxtar Auezov, Mirzə Tursunzadə, Şərəf Rəşidov, Berdi Kerbabayev qəbil sənətkarların yaradıcılıqları haqqında elmi-ədəbi yazıları, qardaş respublikanın oxucuları və ədəbi ictimaiyyətləri tərəfindən böyük maraqla qarşılanmışdır.

Qüdrətli söz ustası, görkəmli alim, ictimai xadim Mirzə İbrahimova həsr edilən xatirələrin müəllifləri sırasında tanınan elm və mədəniyyət xadimlərini, hökumət və dövlət nümayəndələrini, xarici ölkələrdən olan görkəmli qələm sahiblərini görmək olar.

Xatirələrin ümdə məziyyətləri sırasında, onların müəlliflərinin sənət və sənətkarlıq, elm və mədəniyyət haqqında düşüncələrini ifadə etmək üçün Mirzə müəllimin yaradıcılıq xəzinəsi simasında düşüncələrini açıqlamaq üçün çox zəngin və mötəbər dayaq nöqtəsi tapmaları olmuşdur.

Şairə Mirvari xanım Dilbazi yazırdı:

"Onu həyat öz məktəbində hazırlayıb, ona görə də Mirzə İbrahimov özü bir məktəbdir. Bu məktəbin əlifbası zəka, istedad və onları çiçəkləndirən, bara-bəhərə dolduran sonsuz əməkdir".

Respublikanın ədəbi həyatı ilə yaxından tanış olan Anar "Xatirələr" kitabında dərc etdirdiyi — "Əlvida Mirzə müəllim" yazısı ilə iştirak edir. Xatirə ilə tanış olar-olmaz zehnimdən belə bir sual ötüb keçdi: Anar müəllim "Əlvida" sözünü nə üçün xatirəsinin sərlövhəsinə çıxartmışdır?.

Müəllif özü bu suala yetərincə müdrik səslənən cavab vermişdir:

"Vaxtilə irişə-irişə salam vermək üçün onun baxışlarını pusan adamları da müşahidə etmişəm. Həmin adamlar Mirzə müəllim sahibi ixtiyar olmayan zamanlarda — onu görəndə özlərini görməməzliyə vuranda da.

Şübhə yoxdur ki, Mirzə İbrahimov bizim ədəbiyyatımızda bütöv bir dövrdür…"

Yazıçı Nahid Hacıyev yazır: "Mirzə müəllim xalqın ürəyindən qopmuşdu, xalq ürəyinin tərcümanı idi. Onun bütün həyatı, yaradıcılığı, ictimai xadim kimi coşğun fəaliyyəti vətənə, torpağa sevgi üstündə köklənmişdi".

Ədibin həyatı və yaradıcılığı ilə yaxından tanış olan Yasif Nəsirli xatirəsində yazır:

"Ey böyük sənətkar, ey böyük insan! Bəlkə danışmazdım. Əgər minlərlə çörək verdiyiniz, əlindən tutduğunuz insanların, on illərlə rəhbərlik etdiyiniz Yazıçılar Birliyinin Sizə biganəliyi olmasaydı? Amma mən bu fikirdəyəm ki;

"Yalnız Allahsız adamlar Mirzə İbrahimovu, onun heç zaman solmayacaq parlaq dühasını, onun Azərbaycan xalqı qarşısında qoyub getdiyi xidmətləri… unuda bilər, dana bilər."

Nadir istedadı və alim dərrakəsi ilə ürəklərdə ədəbi məskən salmış unudulmaz Yaşar Qarayev xatirəsində özünün alim qənaətini belə ifadə edir:

"..Bütün tarix boyu bizim poeziyanın, nəsrin ictimai-ədəbi güzgüsündə Azərbaycan Şərqsiz görünməmişdir… Sovet dövründə bu ənənəyə sədaqəti yüksək səviyyədə qoruyan, onu vüsətli, miqyaslı ölçülərdə həyata keçirmək, icra etmək nümunəsi göstərən əsər "Gələcək gün" oldu. Mirzə Cəlildən sonra Arazı keçən, o taya ana dili aparan, Təbrizdə qəzet nəşr eləyən ikinci ədibimiz Mirzə İbrahimov oldu…"

Görkəmli yazıçı Çingiz Abdullayev yazır:

"Üzeyir Hacıbəyov, Səməd Vurğun kimi Azərbaycanın böyük oğullarının başları üstündə qara buludlar dolaşarkən məhz Mirzə İbrahimov onları müdafiə etmişdir. Mirzə İbrahimov çıxış edərək hamının qarşısında onları "Azərbaycan xalqının vüqarı" adlandırmışdır".

Nəriman Həsənzadə deyir ki, mən o böyük insana və yazıçıya Cənubi Azərbaycanın rəmzi kimi baxırdım.

Mirzə Əjdəroğlu İbrahimovun həm yaradıcılıq, həm də ictimai-siyasi aləmdə vətənə və xalqa namusla, pak niyyətlə xidmət etmək haqqındakı andına ömrünün son anlarına qədər sadiq qaldığı bütün məsul dairələr və nüfuzlu şəxsiyyətlər tərəfindən təsdiq edilmiş bir həqiqətdir. Xalq arasında real həyatdan doğmuş bir əfsanə kimi şöhrət tapmasının özülü inkarı mümkün olmayan həqiqət üzərində qərar tutmuşdur. Bu əfsanəvi reallığa qol-qanad verən Azərbaycanın qüdrətli xalq yazıçısının yetkin təfəkkürü və qüdrətli qələmi olmuşdur. Ədibin doğma və minbir tellə bağlı olduğu və ürəkdən sevdiyi xalqına müraciətlə yazmışdır:

"Ey mənim xalqım, ey mənim ümidim və pənahım!

Ürəyimin istiliyi səndəndir, fikrim nurunu səndən alır. Həyatımın nəşə və sevincinə bais sənsən… Amansız qorxu başımın üstünü alaraq məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar, məndən üz döndərdiyi zaman yeganə dayanacağım sən olmusan. O zaman ki, qaranlıq içərimə kölgə salmağa başlayıb, tənhalıq duyğusu qurd kimi ürəyimi yeməyə başlayıb, onda sənin munis, mehriban, müqəddəs səsini eşitmişəm. Bu səs məni həyata bağlamış, yaşamağa, mübarizə etməyə, çirkabları aradan qaldırmağa ruhlandırmışdır. Qoluma qüvvət verən, iradəmi möhkəmləndirən bu səs sənin səsindir, ey mənim hər şeydən əziz, hər şeydən gözəl və hər şeydən yüksək, hər şeydən nəcib və mərhəmətli xalqım!"

Unudulmaz sənətkarın keçdiyi mənalı ömür və yaradıcılıq yolu ona əbədi həyat və şöhrət qazandırmışdır.

Mirzə müəllimin ömrü boyu sadiq qaldığı vətənə və xalqına, bəşəriyyətə xidmət yolu pak və ədalətli özül üzərindən keçirdi.

Mirzə İbrahimov müasirimizdir, o öz xeyirxah əməlləri, ölməz əsərləri ilə həmişəyaşardır.

**Sabir NƏBİOĞLU**.